# LAYİHƏLƏRİ İDARƏETMƏ MƏKTƏBİ (LİM)

## Ümumi məlumat

Layihələri İdarəetmə Məktəbi (LİM) 2011-ci ilin yanvar ayında ölkədə potensialların yaradılması səylərini dəstəkləmək öhdəliyinin bir hissəsi kimi BP və onun tərəfdaşları tərəfindən yaradılıb.

LİM layihələrin idarə olunması üzrə beynəlxalq səviyyədə qəbul edilmiş geniş bir təlim proqramı təmin etməklə həm özəl, həm də dövlət sektorundakı şəxslərin layihələri idarəetmə bacarıqlarını təkmilləşdirmək üçün nəzərdə tutulub. Bu təşəbbüsdə əsas diqqət bilavasitə layihələrin idarə edilməsində icranın təkmilləşdirilməsinə və ölkədə layihələri idarəetmə üzrə uzunmüddətli bacarıqların yaradılmasına yönəldilib.

LİM Xəzər Universiteti və “ESİ İnternational” şirkəti ilə əməkdaşlıqda yaradılıb. Xəzər Universiteti layihənin icraçısı, layihələri idarəetmə və onunla bağlı məsələlərin həlli sahəsində aparıcı təlim şirkəti olan“ESİ İnternational” şirkəti isə təlim proqramını həyata keçirən tərəfdir.

Proqramın tədris planı yeddi moduldan ibarətdir və Corc Vaşinqton Universiteti (CVU) tərəfindən verilən beynəlxalq səviyyədə qəbul edilmiş “Layihələrin İdarə Edilməsi üzrə Magistr sertifikatı”nın alınmasını təmin edir: Layihələrin İdarə edilməsi, Layihəyə Rəhbərlik, İdarəetmə və Əlaqə, Risklərin İdarə Edilməsi, Planlaşdırma və Xərclərə Nəzarət, Layihə Menecerləri üçün Keyfiyyət, Layihənin İdarə Edilməsinin Tətbiqi Mexanizmi və Layihələri idarəetmə mütəxəssisi (LİEM) imtahanına hazırlıq. Təlim proqramı “ESİ İnternational” şirkətinin Fransa, Böyük Britaniya, İsveç və ABŞ-dan olan müəllimləri tərəfindən həyata keçirilir.

İndiyədək layihə üç fazada həyata keçirilib. LİM-in 2014-cü il üçün məzun buraxılışı sayca 3-cüdür. 28 noyabr 2014-cü il tarixində keçiriləcək tədbirdə 80 məzun sertifikat alacaq. Builki məzunlar hökumət, neft və qaz, sığorta, telekommunikasiya, tikinti, bank, səfirliklər, turizm və təhsil də daxil olmaqla dövlət və özəl sektordan olan müxtəlif təşkilatları təmsil edir.

**Fəaliyyətə başladığı vaxtdan etibarən LİM ilə bağlı əsas faktlar:**

- Bu vaxtadək xərclənmiş vəsaitlərin ümumi həcmi: 2 milyon dollardan artıq (BP və onun tərəfdaşlarının maliyyəsi)
- İştirakçıların ümumi sayı: 298 nəfər
- Verilmiş Bakalavr sertifikatlarının ümumi sayı: 122
- Verilmiş Magistr sertifikatlarının ümumi sayı: 176
- Proqramda iştirak etmiş təşkilatlar: 109
- BP-dən olan məzunlar: 55 nəfər